*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 17 (656)
31 avqust
2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# SEVİNC SEVİNCƏ QARIŞDI

## Prezident və birinci xanımın işğaldan azad olunmuş ərazilərimizə növbəti səfəri də çoxsaylı tədbirlərlə yadda qaldı

Xəbər verildiyi kimi, bu günlər Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər - bir güllə belə atılmadan döyüşsüz, itkisiz azad edilən Laçın və Kəlbəcərə.

Uzun illər ev-eşiklərindən köçkün düşmüş kəlbəcərlilərin və laçınlıların yurd həsrətini, torpaq sevgisini onlarla birlikdə canlarında daşıyan Prezidentin və birinci xanımın zəfərdən sonra bu rayonlara etdikləri bütün səfərlərində hiss olunur ki, onlar da hər bir kəlbəcərli və laçınlı qədər sevinir, orada görülən işlərin miqyası, sürətini görəndə qəlbləri ətrafdakı dağlar qədər böyüyür. Bu duyğular son səfər zamanı da hiss olundu.

Hər dəfə olduğu kimi, bu dəfə də Prezident və birinci xanım regionda görülən irimiqyaslı işlərin sürətini gözləri ilə gördülər. Öncə Kəlbəcərdəki “Soyuqbulaq” Kiçik Su-Elektrik Stansiyasının, “İstisu” Mineral Sudoldurma Zavodunun tikintisi və “İstisu” Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanış oldular. “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Çıraq-1” və “Çıraq-2” Kiçik Su-Elektrik stansiyalarının açılışında iştirak etmələri də səfər çərçivəsində baş tutdu. Qarabağa və Şərqi Zəngəzura hər səfərində bir kəndin, yaxud bir neçə yaşayış məntəqəsinin təməlini qoyan Prezident bu dəfə də Zar kəndinin təməlini qoydu.

Kəlbəcərdən sonra elə həmin gün Laçına gedən Prezident və Birinci vitse-prezident Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış oldular. Laçın rayonunda “AzərEnerji”nin “Mişni” və “Alxaslı” Kiçik Su-Elektrik stansiyalarının açılışında iştirak edən Prezident daha sonra Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməlini qoydu. Dövlət başçısı Kəlbəcər-Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış olduqdan sonra Laçın rayonunun sənaye zonasında fəaliyyətə başlayacaq mebel fabrikinin açılışında iştirak etdi. Bu tədbirin iştirakçıları cənab İlham



Əliyevdən və Mehriban xanım Əliyevadan razı qaldıqlarını, onlarla birlikdə olmalarından məmnunluq hissi keçirdiklərini dilə gətirdilər.

Prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olan Prezident və birinci xanım “Hoçazfilm” yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışında da iştirak etdilər. Təhsilə çox böyük diqqət yetirən dövlət başçısı və təhsilin inkişafında Heydər Əliyev Fondunun rəhbəri kimi önəmli işlər görən Mehriban xanım Əliyeva həmin gün 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışına da qatıldılar. “Həkəri Balıq Təsərrüfatı”nın açılışındakı iştirak da İlham Əliyevin regiona səfərinin əhəmiyyətindən xəbər verirdi. Prezidentin və Birinci vitse-prezidentin Zabux kəndinin sakinləri ilə görüşü isə bir ayrı sevinc, bir ayrı qürur idi. Bu qüruru Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instagram səhifəsində Kəlbəcər və Laçından fotolar paylaşmaqla hər kəsə çatdırdı.

Paylaşımda deyilir: “Kəlbəcər və Laçında! Allaha min şükür. 25.08.2023”. Həmin qürurun davamı olaraq dövlətimizin başçısı və birinci xanım Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində mənzərəli terrasda və Bayraq Meydanının qarşısında keçirilən Laçın Şəhəri Günü bayram şənliklərində iştirak etdilər.

Xatırladaq ki, “Laçın Şəhəri Günü” Prezident İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq bu il avqustun 26-dan etibarən qeyd edilir. Bayramın bu tarixdə qeyd olunması Azərbaycan Ordusunun ötən ilin avqustunda Laçın şəhərində yerləşməsi ilə əlaqədardır. Həmin gün Prezident köçkün laçınlıların doğma yurdlarına dönməsi ilə bağlı xoş



xəbəri özünün twitter səhifəsində paylaşmışdı: “Bu gün avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!”

Hər insanın taleyində bir hikmət var. Belə bir hikmət bizim Mehriban xanım Əliyevanın da taleyinə yazılıb. Laçın Şəhəri Günü ilə xanım Mehriban Əliyevanın da özəl günü - doğum günü üst-üstə düşür. Nə xoş təsadüf! Bəlkə də alın yazısıdır. Bəlkə də Birinci vitse-prezidentin ömrünə Tanrının hədiyyə etdiyidir. Bəlkə də təkcə Mehriban xanıma yox, qoşa qanad olan Əliyevlər ailəsinin tarix qarşısındakı xidmətlərinə verilən Tanrı mükafatıdır. Prezident bir ölkənin təkcə rəsmi rəhbəri deyil. Prezident həm də xalq adlı böyük bir ailənin başçısıdır. Xalqının xoş gününə baxıb fərəhlənir, dərdindən sarsılır. Azərbaycan Prezidenti İlham Əliyev məhz bu cür rəhbərdir. O, təkcə Ulu Öndər Heydər Əliyevin övladı deyil, həm də Azərbaycan xalqının oğludur.

Xalqın böyük rəhbəri və layiqli oğlu ənənəvi olaraq hər il doğum gününü keçmiş köçkün və şəhid ailələri ilə, işğaldan azad olunmuş rayonlarda keçirir. Artıq bu bir ənənəyə çevrilib. Birinci vitse-prezidentin də doğum gününü Laçında - Laçın Şəhəri Günündə qeyd etməsi bu ənənənin davamıdır. Ənənələr həm xalqın, millətin varlığına dəlalət edir, həm də xalqın övladlarını yaşadır.

# QARDAŞ HƏM DƏ DOSTDURSA...

## Azərbaycan-Özbəkistan əlaqələri qədim tarixə, bu günün çağırışlarına və gələcək perspektivlərə söykənir

Azərbaycanla Özbəkistan arasında əlaqələrin, münasibətlərin tarixi qədimdir. Səlcuqların, Xarəzmşahın, Əmir Teymurun, bütövlükdə Türküstan adlanan dövrdən formalaşan bu əlaqələr əsrlər, qərinələr keçdikcə yeni mahiyyət və məzmun almış, keyfiyyətcə yeni mərhələlərə qədəm qoymuşdur.

İnsaf xatirinə etiraf edək ki, Bakı ilə Daşkənd arasında əlaqələrin inkişafında keçmiş SSRİ-nin də rolu az olmayıb. Hər iki müttəfiq respublikanın eyni dövlətin tərkibində olması bu əlaqələri təkcə ittifaqdaxili deyil, ikitərəfli formatda da inkişaf etdirib. Özbəkistan və Azərbaycanın, o zamanın təbirincə desək, zəhmətkeşlərinin qarşılıqlı səfərləri, həmin səfərlərdə mədəniyyət və incəsənət xadimlərinin də iştirakı təkcə iqtisadi deyil, eyni zamanda mədəni sahədə əməkdaşlığın inkişafında mühüm rol oynamışdır.

Daha bir faktı da xatırlamaq yerinə düşər. 1930-cu illərdə qırmızı imperiyanın cəza maşınının kütləvi repressiyaları zamanı on minlərlə azərbaycanlının sürgün edildiyi Orta Asiya regionunda soydaşlarımızın özünə sığınacaq tapdığı yerlərdən biri də Özbəkistan olmuşdur. Əminliklə deyə bilərik ki, Azərbaycanın bu gün Özbəkistanla əlaqələrinin yüksək səviyyədə olmasında ora sürgün edilmiş soydaşlarımızın müəyyən rolu var.

Azərbaycanla Özbəkistan arasında münasibətlər sovetlərin dağılması və müttəfiq respublikaların öz müstəqilliklərini elan etməsindən sonra daha da inkişaf etməyə başladı. Həmin dövrə Azərbaycan-Özbəkistan arasında münasibətlərdə yeni bir mərhələnin başlanğıcı da demək olar. Doğrudur, müstəqilliyin ilk illərində Bakı ilə Daşkənd arasında əlaqələr, qarşılıqlı münasibətlər arzuedilən səviyyədə deyildi. Amma Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtmasından sonra Özbəkistanla da əlaqələrdə, qarşılıqlı münasibətlərdə bir sıçrayış, inkişaf müşahidə edilməyə başladı. Bu, bir tərəfdən, Heydər Əliyev kimi böyük siyasi təcrübəyə malik liderin Azərbaycana rəhbərlik etməsi ilə bağlı



idisə, digər tərəfdən, onun hələ SSRİ zamanında Özbəkistan rəhbərliyi ilə qurmuş olduğu dostluq, qardaşlıq münasibətləri ilə əlaqədar idi. Özbəkistan Prezidenti İslam Kərimov və Azərbaycanın dövlət başçısı Heydər Əliyev SSRİ zamanından qalan dostluq, qardaşlıq münasibətlərinə söykənərək müstəqil dövlətlərimiz arasında bütün sahələr üzrə əlaqələri yeni mərhələyə daşıdılar.

Məhz həmin təməl bugünkü əlaqələrin daha yüksək səviyyədə olmasının ilkin şərti kimi tarixə yazılır. Bu baxımdan Prezident İlham Əliyevin hər iki liderin tarixi xidmətlərini yüksək qiymətləndirməsi təsadüfi deyil: “Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov - iki ölkənin liderləri ikitərəfli münasibətlərin bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Yəni bizim dostluğumuzun böyük tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar”.

Əsası Heydər Əliyev və İslam Kərimov tərəfindən qoyulan bu siyasəti indi Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistanın dövlət başçısı Şavkat Mirziyoyev yeni məzmun və formada inkişaf etdirirlər. Dövlət başçıları səviyyəsində mövcud olan dostluq-qardaşlıq əlaqələri Azərbaycanla Özbəkistanı bir-birinə daha da yaxınlaşdırır, ölkələrimiz arasında yeni əməkdaşlıq imkanları açır. Türk kökünə bağlılıq, qan və can qardaşlığı nəticəsində iqtisadi tərəfdaşlığın hazırkı səviyyəsi onu deməyə əsas verir ki, bu əlaqələr sabah daha da genişlənəcək.

Məlumdur ki, Özbəkistanın dənizə çıxışı yoxdur. Amma Azərbaycan körpü rolunu oynayaraq qardaş ölkənin dünya iqtisadiyyatına inteqrasiya etməsində yardımçı olur. Şərqlə Qərb arasında nəqliyyat əlaqəsini təmin edən Orta dəhlizlə bağlı hər iki ölkə ortaq mövqedən çıxış edir. Bu, Özbəkistanın Azərbaycanı Avropaya çıxış əldə etmək üçün əsas ölkə kimi qəbul etməsində də görünür. Söhbət Çin-Özbəkistan-Türkmənistan və Qazaxıstan-Azərbaycan marşrutu üzrə məhsulların Avropa bazarlarına tədarükündən gedir. Bundan əlavə, sənayenin inkişafı sahəsində Özbəkistanın potensialı və Azərbaycanın energetika sahəsində əldə etdiyi uğurlar hər iki ölkə üçün iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə böyük imkanlar açır.

Bu baxımdan Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana etdiyi növbəti səfərin ölkələrimiz arasında əməkdaşlığa daha güclü təkan verəcəyi şübhəsizdir. Səfər həm iqtisadi-ticarət, investisiya tərəfdaşlığının daha da genişlənməsinə yol açacaq, həm də enerji, regionlararası əməkdaşlıq, sənaye, xüsusilə avtomobil sənayesi, tekstil, kənd təsərrüfatı, nəqliyyat-tranzit, səhiyyə, turizm, humanitar və digər sahələr üzrə əlaqələrin potensialını işə salacaq.

Sənaye kooperasiyası ilə bağlı məsələlər hər iki dövlətin iqtisadi tərəfdaşlığında duran mühüm layihələrdəndir. Xəbər verildiyi kimi, ötən ay Şuşada Hökumətlərarası Komissiyanın növbəti iclası keçirilmişdir. Komissiya qarşılıqlı əlaqə məsələlərinin bütün spektrini ətraflı şəkildə təhlil etmişdir. Məlum olmuşdur ki, enerji sahəsində çox yaxşı perspektivlər var. Azərbaycanın enerji şirkətləri Özbəkistanla qarşılıqlı əlaqələr quraraq birlikdə fəaliyyət göstərirlər. Ümumiyyətlə, Azərbaycanın və Özbəkistanın bütün istiqamətlər üzrə birgə uğurlu fəaliyyəti uzun illər üçün nəzərdə tutulub. Məhz bu amil prezidentlərin avqustun 23-də verdikləri birgə bəyanatlarında xüsusi vurğulanmışdır.

Özbəkistan işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə töhfə verən ilk ölkələrdəndir. Xarici dövlət tərəfindən maliyyələşdirilən ilk xarici layihə də Özbəkistana məxsusdur. İşğaldan azad edilmiş Füzuli şəhərində Prezident Şavkat Mirziyoyevin təşəbbüsü ilə Özbəkistan büdcəsinin vəsaiti hesabına 960 şagirdlik məktəb binası inşa olunub. Bu barədə Prezident İlham Əliyev fikirlərini belə ifadə edib: “Bu, Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsidir və biz bu qardaşlıq, həmrəylik, dəstək jestini çox yüksək dəyərləndiririk. Digər tərəfdən, deyərdim ki, bu məktəb, əslində, bir təhsil sarayıdır. Mən may ayında Füzulidə olarkən tikintinin gedişi ilə tanış oldum və Özbəkistanın bizə təqdim etdiyi həmin dost töhfəsinin miqyasını əyani şəkildə gördüm. Məktəb özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyır və əminəm ki, bu, təkcə təhsil ocağı deyil, eləcə də bizim dost və qardaşlığımızın daha bir mərkəzi olacaq”.

**Səhifə “Azərbaycan” qəzetinin müxbiri Züleyxa Əliyevanın müəllifi olduğu məqalələr əsasında hazırlanıb.**

2_Layout 1 29.08.2023 8:57 Page 1



# 60 İLLİK YUBİLEY ZİRVƏSİ

Avqustun 15-də Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Daxili Qoşunların Veteranlar şurasının sədri, müharibə və Silahlı Qüvvələr veteranı, istefada olan polkovnik Çingiz Daşdəmirovu 60 illik yubileyi münasibətilə qəbul edib. Yubilyarı Daxili Qoşunların komandanlığı adından təbrik edən general-mayor İ.Muradov onun respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda şərəfli döyüş yolu keçdiyini, uzun illər qoşunların sıralarında hərbi xidmət borcunu peşəkarcasına yerinə yetirdiyini, şəxsi heyətin təlim-tərbiyəsinə layiqli töhfə verdiyini vurğulayıb. Həmçinin o, istefada olan zabitin qoşunların veteran təşkilatına rəhbərlik edərək, hərbi qulluqçularımızın vətənpərvərlik tərbiyəsi işində öz əməyini əsirgəmədiyini söyləyib.



Ç.Daşdəmirov yubileyinin təbrik olunmasına və şəxsinə göstərilən hörmətə görə Daxili Qoşunların komandanlığına dərin minnətdarlığını bildirib. O, qoşunların veteranı olmasından qürur duyduğunu, çoxillik hərbi xidməti dövründə komandanlığın etimadını doğrultmağa çalışdığını və zəngin həyat təcrübəsi qazandığını deyib. Veteranlar şurasının sədri gənc zabit olarkən müharibənin hər üzünü gördüyünü və ağır yaralandığını xatırladaraq, bu gün qalib ölkənin vətəndaşı olmağın hər birimizdə böyük iftixar hissi yaratdığını diqqətə çatdırıb.

İstefada olan polkovnik sədri olduğu şuranın fəaliyyətinə də toxunaraq, Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən veteranlara daim diqqət və qayğı göstərildiyini məmnunluqla ifadə edib.

General-mayor İ.Muradov yubilyara gül dəstəsi və təbriknamə təqdim edərək, ictimai, habelə pedaqoji fəaliyyətində uğurlar arzulayıb. Sonda xatirə şəkli çəkdirilib.

**Yalçın Abbasov**

# MİNAATAN BATAREYA XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİ UĞURLA HƏYATA KEÇİRİR

Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 17074 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Keçirilən məşğələlərin nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlir. Bu işdə batareyanın təcrübəli komandiri baş leytenant Əliş Məmmədovun zəhməti danılmazdır.







Minaatan batareyanın vəzifələri barədə danışan baş leytenant Ə.Məmmədov bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmək üçün bölmələri atəş dəstəyi ilə təmin etməkdir. Eyni zamanda düşmənin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin sərbəst irəliləməsinə əlverişli şərait yaradır. Batareya komandiri söylədi ki, qarşıya qoyulan döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir.

Əvvəlcə minaatan qurğular təpələrin, yarğanların əks yamaclarında quraşdırılır. Kəşfiyyat və idarəetmə taqımı şərti olaraq düşmən obyektləri, habelə canlı qüvvəsi barədə məlumatları toplayır və yerləşdiyi məsafəni təyin edir. Alınmış məlumat batareyanın baş zabitinə ötürülür. Baş zabit isə alınmış məlumatlar əsasında atış göstəricilərini hesablayır və atəş taqımlarına çatdırır. Taqımlar ötürülmüş məlumatlar əsasında hədəf üzərində ilkin yoxlama atışı keçirirlər. Bundan sonra kəşfiyyat və idarəetmə taqımı artilleriya kəşfiyyat cihazları vasitəsilə mərminin düşdüyü yeri, eləcə də sapma məsafəsini müəyyənləşdirir. Xüsusi cihaz vasitəsilə koordinatlar dəqiqləşdirilir və yenidən atəş taqımlarına ötürülür. Batareyanın baş zabitinin "atəş" komandasından dərhal sonra yaylım atəşləri tam dəqiqliklə həyata keçirilir və düşmən mövqelərinə sarsıdıcı zərbələr endirilir. Üçüncü - sonuncu mərhələdə isə "tələfat atışı" ilə qarşı tərəfin canlı qüvvəsi və hərbi obyektləri məhv edilir. Bununla da verilən tapşırıq yerinə yetirilmiş olur.

Baş leytenant Ə.Məmmədov hərbi qulluqçuların peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə görülən işlərdən də danışdı. O, şəxsi heyətin mütəmadi olaraq praktiki məşğələlərə cəlb olunduğunu dedi: "Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində batareya hücumda, batareya müdafiədə, sapmalara görə sınaq atışının keçirilməsi, minaatanların təyinatı, onlara texniki qulluğun göstərilməsi, minaatanın tuşlanması və digər mövzularda təlimlər keçirilir, minaatanın taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən təhlükəsizlik qaydaları öyrədilir".

Batareya komandiri funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan leytenant Rəşfi Məmmədzadə, baş çavuş İsmayıl Yusifov, əsgərlər Mehman Muradzadə və Cavid Qurbanəliyevin adlarını çəkərək, əlavə etdi ki, şəxsi heyət döyüş hazırlığının yüksəldilməsi üçün əzmlə çalışır və istənilən zaman qarşısına qoyulan tapşırıqların icrasına hazırdır.

**kapitan Xədicə Hacızadə**

# "DÖYÜŞ HAZIRLIĞININ ARTIRILMASI, HƏRBİ İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİ ƏSAS MƏQSƏDİMİZDİR"

16073 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır və regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.





Bölmənin döyüş təlimi, ictimai-siyasi hazırlığı, daxili qayda-qanuna riayət edilməsi, texnikanın, silah-sursatların və əmlakların vəziyyətinə, eləcə də şəxsi heyət tərəfindən döyüş tapşırıqlarının müvəffəqiyyətlə icra olunmasına cavabdehlik daşıyan dəstə komandiri polkovnik-leytenant Elnur Səmədov qarşıya qoyulan bütün tapşırıqların vaxtında və dəqiq yerinə yetirildiyini söylədi. Bildirdi ki, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq və ixtisas hazırlığından məşğələlər keçirilir. Bu zaman hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına, məşğələ mövzularının dərindən mənimsənilməsinə diqqət yetirilir.

Əldə olunmuş nailiyyətlərdə dəstə komandiri polkovnik-leytenant E.Səmədovun əməyi danılmazdır. O, keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin bir məqsədə - döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasına xidmət etdiyini bildirdi: "Dəstənin öz vəzifələrini keyfiyyətlə yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Bu, dəstənin döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaq, qoyulan tapşırıqları məsuliyyətlə və vaxtında icra etməkdir".

Dəstə komandiri məlumat verdi ki, keçirilən təlimlər zamanı bölmə komandirləri tərəfindən şəxsi heyətin bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır: "Tapşırıqların müvəffəqiyyətlə icra olunması şəxsi heyətin bilik və vərdişlərindən çox asılıdır. Əldə olunan müsbət nəticələr, təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır. Rütbə və vəzifəsindən asılı olmayaraq, hər bir hərbi qulluqçu öz məsuliyyətini şüurlu surətdə dərk edir və gündəlik xidməti fəaliyyətində verilən tapşırıqları nümunəvi şəkildə yerinə yetirməyə çalışır".

Keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan dəstə komandiri şəxsi heyətlə yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. O, bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Rəşad Umudovun əməyini xüsusilə qeyd etdi. Bildirdi ki, mayor R.Umudov hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Bununla yanaşı, dəstənin ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin funksional vəzifələrinin öhdəsindən layiqincə gələrək, digər hərbi qulluqçulara nümunə olan mayor Yaqub Abbasov, leytenant Nuşiravan Zeynalov, gizir Cəfər Şəfiyev, baş çavuş Şəhriyar Məmmədli və baş çavuş Orxan Səlimlinin adlarını çəkdi.

Polkovnik-leytenant E.Səmədov hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**kapitan Şahin Cəfərzadə**

# HELİKOPTER MANQASI TƏLİMLƏRDƏ PEŞƏ MƏHARƏTİNİ TƏKMİLLƏŞDİRİR

Şəxsi heyətin, maddi vəsaitlərin əməliyyat və ya tədbirlərin keçirildiyi rayonlara daşınması, patrul-nəzarət, axtarış-xilasetmə uçuşlarının həyata keçirilməsi, həmçinin paraşüt-desant və xüsusi həmlə qrupları ilə birlikdə fəaliyyətlərə daim hazır olması 17077 saylı hərbi hissənin qarşısında duran əsas vəzifələrdir.



Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Anar Alıyev yüksək mənəvi-psixoloji hazırlığa malik olan şəxsi heyətin bütün tapşırıqların öhdəsindən peşəkarlıqla gəldiyini bildirdi. Qeyd etdi ki, hərbi qulluqçular peşə hazırlığının daha da artırılması istiqamətində hər zaman öz üzərilərində çalışır, istifadədə olan helikopterlərin uçuşa hazır, saz vəziyyətdə saxlanılmasını təmin edirlər.



Qəzetimizin bu sayında hərbi hissənin xidməti vəzifələrini lazımi səviyyədə yerinə yetirən helikopter manqasının fəaliyyəti haqqında material hazırlamaq qərarına gəldik.

Manqa komandirinin vəzifələrini müvəqqəti icra edən mayor Emin Manafov diqqətə çatdırdı ki, tabeliyində olan hərbi qulluqçular döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün vəzifələrinin icrasına son dərəcə məsuliyyətlə yanaşırlar. O, ekipajların uçuşlara hazırlığına fərdi nəzarəti həyata keçirir.

Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı tərəfindən təsdiq edilmiş illik uçuş planına uyğun olaraq, eskadrilyanın uçuş heyətilə təlim-məşq uçuşları təşkil olunur. Hər bir uçuş növbəsinin sonunda manqanın şəxsi heyətilə keçirilmiş uçuşların Azərbaycan Respublikası Hava Fəzasında Əsas Uçuş Qaydaları təlimatına əsasən, müvafiq təhlillər aparılır.

Planlı şəkildə helikopterlərdə reqlament işləri aparılır, texniki qulluq göstərilir.

Şəxsi heyətdə böyük ruh yüksəkliyi və özünəinam hissi formalaşıb. Bir sözlə, Daxili Qoşunların sıralarında xidmət etməkdən qürur hissi duyan manqanın şəxsi heyətinin fəaliyyəti təqdirəlayiqdir. Manqanın intizamlı, bacarıqlı hərbi qulluqçularının da zəhmətini xüsusi qeyd edən mayor E.Manafov helikopter manqasının şturmanı mayor Kənan Nəsibov, qərargahın borttexnik-təlimatçısı kapitan Elvin Cəlilov, helikopter manqasının borttexnikatıcısı kapitan Anar Qurbanov və helikopter manqasının texniki istismar hissəsinin rəisi kapitan Emin Cəlilovun vəzifələrinin öhdəsindən bacarıqla gəldiklərini nəzərimizə çatdırdı.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 29.08.2023 9:00 Page 1



*Şəhidlərimiz*

# MUROVDAĞDAN ÇANAQÇIYADƏK İGİDLİKLƏ DÖYÜŞƏRƏK VƏTƏNƏ HƏYATINI FƏDA ETDİ...

Danılmaz həqiqətdir ki, əsrlər boyu bir çox dövlət və xalq müxtəlif səbəblərdən döyüş meydanında qalib olmağı bacarmayıb. Güclü lider, döyüşkən gənc nəsil yetişdirən, doğma torpağı naminə özünü fəda etməyə hazır olan, birliyini qoruyan, mənəvi ruhu yenilməzlik mənbəyinə çevrilən xalqlar tarixən hərbi zəfər qazanıblar. Azərbaycan xalqı da onların sırasında adını qürurla tarixə yazıb. Müzəffər sərkərdənin rəhbərliyi altında rəşadətli ordumuz müasir döyüşaparma qabiliyyəti nümayiş etdirərək 44 gün ərzində erməni işğalçılarını məğlubiyyətə uğradıb. Beləliklə, Vətən torpaqlarının işğalına son qoyub.

Hər bir şəhid və qazimizin döyüş yolu müqəddəs torpağımıza ehtiram, hərbi anda sədaqət və qeyrət nümunəsidir. İnsanlıq simasını itirmiş düşmənin başını dəmir yumruq qətiyyəti ilə əzmiş bu oğulların igidliyindən yazmaqla və danışmaqla bitməz.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından biri də baş əsgər Fərəcov Kamran İlqar oğludur. Şəhidin ailəsi ilə əlaqə saxlayaraq onun ömür yolu barədə məqalə üçün gərəkli olan məlumatları topladım. Həmçinin silahdaşlarının Kamranla bağlı xatirələrini qeydə aldım.

O, 1996-cı il fevralın 14-də o vaxt Əli-Bayramlı adlandırılan hazırkı Şirvan şəhərində doğulub. İlqar Fərəcov və Reyhan Fərəcovanın yeganə oğul övladı idi. Fəridə, Gülnar və Gülər adlı bacıları var. Doğmalarının bildirdiklərinə görə, Kamran xaraktercə sakit, təmkinli, ailəyə bağlı, dostlarına sadiq, zəhmətkeş gənc olub. Sağlam həyat tərzinə ciddi diqqət yetirib. Öz tərbiyəsi ilə yaşıdlarına və özündən kiçiklərə örnək göstərilib. Şirvan şəhərində yerləşən Azərbaycan Respublikasının Milli Qəhrəmanı Tahir Bağırovun adına 11 saylı tam orta məktəbi bitirib. Tam orta təhsil haqqında attestatında "əla" qiymət yazılan fənlərdən biri də çağırışaqədərki hazırlıqdır. Məktəbli olduğu vaxtdan hərbçi peşəsinə rəğbət bəsləyib. Valideynləri və bacıları, habelə dostları ilə söhbətlərində hərbçi olmağı arzuladığını deyib. Müəllimlərinin aşıladıqları vətənpərvərlik əqidəsi Kamranın gələcək həyatı üçün vacib rol oynayıb.

Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun döyüş şücaəti haqqında Kamran həmişə iftixarla danışıb. Bu misilsiz hünərlə bağlı eşitdikləri, oxuduqları yaddaşında dərin iz qoyub.

2014-cü ilin aprel ayından 2015-ci ilin oktyabr ayınadək Kamran Bakıda Milli Qvardiyanın tərkibində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət borcunu ləyaqətlə yerinə yetirib.

2016-cı ilin aprelində ordumuzun ön cəbhədə təcavüzkarlara vurduğu sarsıdıcı zərbə Kamranın da qəlbində böyük coşqu və ruh yüksəkliyi yaradıb. Həyatını hərbi xidmətə həsr etmək arzusunu gerçəkləşdirmək üçün qəti qərar verib. Valideynlərinin bu məsələdə xeyir-duasını alıb.



2016-cı ilin iyul ayının 16-da Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun 60 mm minaatan yarımqrupunun tuşlayıcısı, sonra isə xüsusi həmlə qrupunun heyət nəfəri vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə əzmkarlığı ilə komandanlığın etimadını doğruldub. Xüsusi təyinatlı dəstədə xidmət etməsilə qürur duyub. Bu dəstənin komandiri olmuş mayor Şixamir Qaflanov şəhidlik məqamına ucalıb və ölümündən sonra ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Ailədə xidməti barədə söhbət düşəndə Kamran öz peşəsini sevdiyini, heç bir çətinliyin onu ruhdan salmadığını, hərbi biliklərə maraqla yiyələndiyini söyləyib. Döyüş və mənəvi-psixoloji hazırlığında fərqləndiyinə görə komandirləri tərəfindən davamlı olaraq mükafatlandırılıb. Hərbi kollektivdə silahdaşlarının hörmətini qazanıb.

2018-ci ilin avqust ayının 19-da Kamran Fidan xanımla ailə qurub. Xoşbəxtliyinə qovuşması onun həyatına yeni ovqat gətirib, mənəvi dayağı olan ailəsinə qayğısını əsirgəməyib. Gələcəklə bağlı arzularla yaşayıb.

Vətən müharibəsi iştirakçısı, 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini kapitan Əhməd İsmayılov Kamranı 2018-ci ilin avqustundan tanıdığını dedi. Xüsusi təyinatlının qrup komandiri olub. Zabit məlumat verdi ki, Kamran intizamlı, məsuliyyətli, verilən tapşırıqların öhdəsindən bacarıqla gələn, təlimlərdə peşə məharətini artırmağa nail olan, hərbi kollektivin mənafeyini üstün tutan, yoldaşları ilə münasibətlərində dürüst davranan hərbi qulluqçu kimi yaddaşında qalıb. Hərb tarixi ilə maraqlanıb, dünyagörüşünü genişləndirib. Ölkəmizin həyatında əhəmiyyətli hadisələri diqqət mərkəzində saxlayıb.

Kapitan Ə.İsmayılovun dediyinə görə, Kamran Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin iştirakı ilə keçirilən taktiki təlimlərə qatılaraq yüksək döyüş hazırlığı ilə seçilib. Vətən müharibəsi başladıqda ön cəbhəyə ilk göndərilən xüsusi təyinatlıların arasında Kamran da vardı.

16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun dəzgahlı qumbaraatan yarımqrupunun komandiri baş çavuş Nurlan Abbasov da Vətən müharibəsi iştirakçısıdır. O, Kamranla birgə xidmət edib, onu 2017-ci ildən tanıyıb. Nurlanın sözlərinə görə, Kamran səmimi insan, güvəniləsi dost idi. Hərbi qulluqçu kimi öz üzərində çalışaraq, öyrəndikləri ilə kifayətlənməyib. Silahının taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilib. Hərtərəfli hazırlığa malik xüsusi təyinatlı olmağa can atıb. Koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması və ictimai təhlükəsizliyin mühafizəsi üzrə tapşırıqları yerinə yetirib.

Müharibə zamanı bu iki silahdaşın döyüş yolu fərqli istiqamətlərdə olub. Nurlan vurğuladı ki, Kamran cəsarətli və mətin xüsusi təyinatlı kimi ön cəbhədə çətin sınaqlara sinə gərib.

Vətən müharibəsi iştirakçıları: 16073 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin başçavuşu gizir Emil Abuzarlı, qazi, ehtiyatda olan baş çavuş Əfqan Zaxmayev, qazi, istefada olan çavuş Orxan Babayev, 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı çavuş Xəzər Cəfərov və götürmə qrupunun baş atıcısı kiçik çavuş İntiqam Fəttayev Kamranın döyüşçü yoldaşları olaraq od-alovlu günlərin əzab-əziyyətini görüblər, dəfələrlə ölüm təhlükəsi ilə üzləşiblər. Orxan müharibədə Kamranın yaxın silahdaşı olub. Onlar danışdılar ki, Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları ilə birlikdə döyüş əməliyyatlarına cəlb olunublar. Bildirildi ki, Kamran 3-cü taborun sıralarında vuruşub, ona avtomat və qumbaraatan silahları verilib. Murovdağdan başlayaraq Füzuli, Cəbrayıl, Xocavənd və Xocalı rayonlarının ərazilərində ayrı-ayrı yüksəkliklərin, eləcə də müxtəlif yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda mərdliklə döyüşüb. Həmin istiqamətlərdə işğalçıların mövqelərinin darmadağın edilməsi, zirehli texnikalarının sıradan çıxarılması, canlı qüvvəsinin itkiyə məruz qoyulmasında qətiyyət göstərib. Düşmənin üzərinə irəliləyərkən öndə gedib, qorxmazlığı ilə silahdaşlarını da ruhlandırıb. İşğalçıların əks-hücumlarının qarşısının alınması zamanı onlara tutarlı atəş zərbələri endirib, azad edilən ərazilərin müdafiəsində də möhkəm dayanıb.

Döyüşçü yoldaşları ilə söhbətlərində Şuşa uğrunda vuruşmaq və bu qədim şəhərimizə qədəm basmaq arzusunu bölüşüb.



Silahdaşlarının qeyd etdiklərinə görə, 2020-ci ilin oktyabr ayının 24-də Xocalı rayonunun Çanaqçı kəndinin yaxınlığında düşmənlə qarşı-qarşıya şiddətli döyüş zamanı atıcı silahdan atəş nəticəsində Kamran boğazından ağır yaralanaraq şəhadətə yüksəlib. Həmin döyüşdə bir neçə nəfər xüsusi təyinatlı şəhid olub və yaralanıb. Bu kəndin azad olunması və ətrafdakı yüksəkliklərin nəzarətimizə keçməsi sonrakı günlərdə Şuşaya hücum əməliyyatının təşkilində mühüm amilə çevrilib.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 2 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Kamranın 2020-ci ilin oktyabr ayının 24-də hərbi əməliyyat nəticəsində odlu silah və digər adi silah növləri ilə törədilmiş zədələnmələr səbəbindən şəhid olması faktı öz əksini tapıb. Ancaq sənəddə hərbi qulluqçumuzun Füzuli rayonunda şəhid olduğu yazılıb.

Xüsusi təyinatlının nəşi 2020-ci ilin oktyabr ayının 29-da evə gətirilib və həmin gün Şirvan şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş əsgər K.Fərəcov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edim ki, şəhidin qohumu Nicat Əsədov Müdafiə Nazirliyinin hərbi qulluqçusu kimi döyüş yolu keçib, Vətən müharibəsi qazisidir.

Şirvan şəhərində anadan olmuş və yaşamış 148 nəfər sakin Vətən uğrunda şəhidlik zirvəsinə ucalıb. Şəhərdə Fərəcovlar ailəsinin yaşadığı ünvanda şəhidin xatirə lövhəsi yaradılıb və barelyefi vurulub. Bununla yanaşı, ailə tərəfindən evdə xatirə guşəsi düzəldilib. Şirvandakı 11 saylı tam orta məktəbin 6-cı sinfinə, habelə 21 saylı tam orta məktəbin 3c sinfinə Kamranın adı verilib.

Müəlliflər İbrahim Hüseynovun "Qələbə şəhidləri", Rahil Məmmədin "Müqəddəs savaş", Sevda İbrahimlinin "Vətənə sevdalılar", Dürdanə Ramazanlının "Qəhrəmanlar can verdi yurdu yaşatmaq üçün! İkinci Qarabağ müharibəsinin Şirvan şəhidləri" kitablarında, dövri mətbuatda, APA televiziya kanalında, müxtəlif saytlarda şəhid xüsusi təyinatlının döyüş yolu işıqlandırılıb.

2022-ci ilin oktyabr ayında şəhidin həyat yoldaşı Abşeron rayonunun Hökməli qəsəbəsində mənzillə təmin olunub. Fidan xanım DİN-in Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin kiçik inspektoru vəzifəsinə təyin edilib, polis serjantıdır. Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun bu qayğısı şəhid ailəsi tərəfindən minnətdarlıqla qarşılanıb.

Kamran sonuncu dəfə 2020-ci ilin sentyabr ayının 20-də doğmaları ilə görüşüb, evdə bir gün qalıb. Sentyabrın 27-də müharibə başlayanda onun telefonuna zəng çatmayıb. Bir neçə gün sonra özü zəng edərək döyüş bölgəsində olduğunu gizlədib, ailə üzvlərini buna inandıra bilib. Ancaq günlərlə ondan xəbər ala bilməyən atası oğlunun yoldaşlarından birinin telefonuna zəng etdikdə o, yaralandığına görə silahdaşlarından ayrıldığını, Kamranın döyüşdə olduğunu deyib. Beləcə, 28 gün ərzində ailəsinə bunu bildirməyib. Döyüşdüyünü bildikdən sonra hər gün həyəcanla ondan xəbər gözləyiblər. Sonuncu dəfə oktyabrın 19-da zəng edib, telefon danışığında bu sözləri də səsləndirib: "Sadəcə, dua edin, bizi irəli aparan sizin dualarınızdır".

Şəhidə həsr olunan şeirlərdən birində belə bir bənd var:

**Vüqarlı əzəmət vardı canında,**
**Ata olmaq vardı dualarında.**
**O, elə şəhiddir, bir el igidi,**
**Az yaşa, mənalı yaşa deyirdi.**

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# QUBA RAYONUNDA YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİLİB

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçulara və onların ailə üzvlərinə dərin rəğbət və ehtiram nümayiş etdirilir. Onların həyatı və şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

16073 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən xüsusi təyinatlı dəstənin komandirinin tərbiyə işləri üzrə müavini kapitan Əhməd İsmayılovun rəhbərliyi ilə bir neçə hərbi qulluqçunun Daxili Qoşunların şəhid hərbi qulluqçusu çavuş Ömərov Orxan İmran oğlunun Quba şəhərində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür.

Çavuş Orxan Ömərov 1991-ci il oktyabrın 17-də Azərbaycanın gözəl guşələrindən olan Quba rayonunun Qonaqkənd qəsəbəsində doğulub. Ömərovlar ailəsinin ortancıl və yeganə oğul övladı idi. Atası İmran Ömərov 2000-ci ildə dünyasını dəyişib. Anası Rəna Ömərova hazırda işləmir, evdar qadındır. Orxanın Gülzədə və Albina adlı bacıları var. Orxan Qonaqkənd qəsəbəsində yerləşən Aslan Aslanov adına tam orta məktəbin məzunudur. Çalışqan şagird olub, əsas təhsil haqqında şəhadətnamədə ona bütün fənlərdən "yaxşı" qiymət yazılıb. 2010-2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət mülki sahələrdə işləyib, halal zəhməti ilə ailəyə maddi köməyini əsirgəməyib.



2013-cü ilin mart ayının 29-dan Orxan Daxili Qoşunların sıralarında öncə 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun radiotelefonçu-atıcısı, sonra 17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcı-sanitarı və 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcısı vəzifələrində müddətdən artıq həqiqi hərbi xidmət keçib. O, 44 günlük Vətən müharibəsində 2020-ci ilin oktyabr ayından iştirak edərək düşmənə qarşı qətiyyətlə vuruşub. 2020-ci il noyabrın 6-dan 7-nə keçən gecə Şuşa yaxınlığında döyüş zamanı aldığı qəlpə yaralarından şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Azərbaycan Respublikası Müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə çavuş O.Ömərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.




Şəhidin ailəsi ilə görüşən hərbi qulluqçularımız Orxanın anası Rəna Ömərova və bacısı Albina Ömərova ilə söhbət ediblər. Söhbət zamanı ailə üzvləri Orxanın ömür yolu barədə xatirələrini bölüşüblər.

Rəna Ömərova oğlu barədə fəxarətlə və qürurla danışıb. Qeyd edib ki, Orxan qeyri-adi istedadı, yaradıcı dünyagörüşü ilə yeniyetmə dövründən fərqlənib, müxtəlif mövzulu şeirlər yazıb, el məclislərində meyxana janrında çıxışlar edib. Şair olaraq özünə Orxan Qubalı təxəllüsünü götürüb. Hələ məktəbli olduğu vaxtdan idmanla maraqlanıb, fiziki hazırlığına ciddi yanaşıb. Orxan xaraktercə dürüst, xeyirxah, cəsarətli, ünsiyyət qurmağı bacaran, dostluğa dəyər verən, ailəcanlı gənc olub.

Şəhidin bacısı Albina Ömərova bildirib ki, Xaçmaz şəhərindəki Abamüslüm Səlimov adına 7 saylı tam orta məktəbin 3b sinfinə qardaşı Orxanın adı verilib. Həmçinin o qeyd edib ki, "Qələbə şəhidləri" kitabının III cildində və "Quba şəhidlərinin ev muzeyləri" kitabında Orxan haqqında məlumatlar dərc olunub. Şəhidin bibisi oğlu, həkim Fərrux Nəsrullayevin dəstəyi ilə döyüşçüyə həsr olunan "Şəhid şair" kitabı işıq üzü görüb. Ayrı-ayrı televiziya kanalları tərəfindən hazırlanan süjetlərdə Orxanın döyüş yolu işıqlandırılıb. Sağlığında Orxan öz yaradıcılığı ilə tanınıb. Ürəklərə yol tapan şeirləri onun söz yadigarlarıdır. Şeirlərinin səsləndirildiyi disk də buraxılıb. Vətən müharibəsindən sağ qayıtsaydı, oxucularına, dinləyicilərinə neçə-neçə yeni şeir ərməğan edəcəkdi.

Kapitan Ə.İsmayılov Orxanın və digər şəhidlərimizin fədakarlığı nəticəsində ölkəmizin qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edib. Hərbi qulluqçularımızın şərəfli döyüş yolu barədə maraqlı məqamlara toxunub.

Ümumiyyətlə, 44 günlük Vətən müharibəsindən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən xüsusi diqqət və qayğıdan razı qaldığını söyləyən Ömərovlar ailəsi dərin minnətdarlığını ifadə edib.

**kapitan Şahin Cəfərzadə**

4_Layout 1 30.08.2023 9:49 Page 1



## "ETİBARLI MÜHAFİZƏ ƏSAS MƏQSƏDİMİZDİR"



17074 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri komendant bölüyüdür. Bölük döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkın, anbarların etibarlı mühafizəsi və müdafiəsini təşkil edir, qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilir. Şəxsi heyət xidmətin düzgün aparılması üçün əlindən gələni əsirgəmir. Etibarlı mühafizənin təmin olunması qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır.

Bölük komandiri baş leytenant Rəşad Əliyev bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Xidmətə cəlb edilən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır.




O, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsində bölük komandirinin müavini baş leytenant Fərid Tağıyevin, mənəvi-psixoloji durumun yüksəldilməsində isə tərbiyə işləri üzrə müavin leytenant Malik Bəbirovun əməyinin olduğunu nəzərə çatdırdı.

Zabit xidmətin aparılmasında vacib sayılan şərtləri sadalayaraq söylədi ki, qarovul xidmətinə cəlb edilən hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olması olduqca vacibdir. Bununla yanaşı, postda xidmət aparan zaman saatdarın ayıq-sayıqlıq, çeviklik, cəsarət nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edən faktorlardandır. Xidmətin təşkili zamanı müvafiq hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsi də başlıca amildir. Yalnız bu halda hərbi hissənin etibarlı mühafizəsindən danışmaq olar.

Baş leytenant R.Əliyev bölüyün fəal, bacarıqlı, intizamlı hərbi qulluqçuları kimi leytenant Rəvan İmanov, baş çavuş Elçin Əhmədov, əsgərlər Vüsal Xəlilzadə və Kənan Qocayevin adlarını qeyd edərək, onların yoldaşlarına nümunə olduqlarını bildirdi.



Əminliklə demək olar ki, hərbi hissənin komendant bölüyünün şəxsi heyəti nümunəvi xidməti, sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır.

**kapitan Xədicə Hacızadə**

## TİBB XİDMƏTİ VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

16073 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti rəisi tibb xidməti mayoru İlham Abbasov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.





Tibb xidməti mayoru İ.Abbasov bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçularından həkim-terapevt tibb xidməti leytenantı Söhrab Muxtarzadə, sanitar-təlimatçı, dezinfektor baş çavuş Seymur Siraciyev qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər. Belə ki, gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Xidmət rəisi söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir. Həmçinin qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq, səhər və axşam saatlarında termometriya aparılır.

Bir sözlə, şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir.

**kapitan Şahin Cəfərzadə**

## PEŞƏKAR VƏ MƏSULİYYƏTLİ İSTEHKAMÇILAR

16075 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında rolu olan bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçısı baş çavuş Kamal Məmmədli söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.





Məlumat üçün bildirək ki, hərbi hissə komandanlığı və dəstənin komandir heyəti tərəfindən müsbət xarakterizə olunan baş çavuş K.Məmmədli ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb.

Baş çavuş K.Məmmədli yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuş Emin Cəfərovun və çavuş Ruslan Qafarovun adlarını qeyd edərək, onların verilən tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını bildirdi.

Hərbi hissənin mühəndis və kimya xidmətinin rəisi mayor İlkin Qasımov istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

## İŞÇİLƏR VERİLMİŞ TAPŞIRIQLARIN İCRASINA MƏSULİYYƏTLƏ YANAŞIRLAR

Qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsində, hərbi hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında təkcə hərbi qulluqçuların deyil, işçilərin də əməyi böyükdür. İşçilər müxtəlif xidmət sahələrində çalışaraq, qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirirlər.

17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi çavuş Şahid Sabirli təbeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzarlıq və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, camaşırxana işçiləri Zəminə Abdullayeva, Sevil Məmmədova artıq uzun zamandır bu taborda əsgərlərin qayğısına qalırlar.





Həftədə 1 dəfə hamam tədbirlərindən sonra 1-ci, 2-ci, 3-cü günlər əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak ütülənib qurudulduqdan sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də komandanlığın nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

Qeyd etmək lazımdır ki, camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

**17071 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## AVTOMOBİLLƏRİN VƏ ZİREHLİ TEXNİKANIN HƏMİŞƏ SAZ VƏZİYYƏTDƏ OLMASINA XÜSUSİ FİKİR VERİLİR



Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılmasında bütün xidmət sahələrinin öz rolu var. Bu baxımdan avtomobil və zirehli texnika xidməti də istisna deyil. Şəxsi heyətin, habelə xüsusi yüklərin təyin olunmuş ünvana vaxtlı-vaxtında daşınmasında xidmətin əməyi böyükdür.

16073 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidməti üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Avtomobil və zirehli texnika xidmətinin rəisi mayor İqdam Hadıyev nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün görülən işlərdən danışarkən bildirdi ki, hər gün sürücü heyəti avtomobil və zirehli texnikaların saxlanıldığı parka gəlir. Parkın girişində xidmət rəisi və park növbətçisi tərəfindən şəxsi heyətin sayı yoxlanılır, təhlükəsizlik qaydaları ilə tanışlıqdan sonra verilmiş tapşırıqlara əsasən fəaliyyətə başlayırlar.

Avtomobil xəttə çıxmazdan öncə parkda yerləşən nəzarət-texniki məntəqəsində maşın rəhbərinin, sürücünün sənədlərinin mövcudluğu, eləcə də nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılır, park növbətçisi tərəfindən xəttə çıxılması üçün icazə verilir. Bundan sonra xidmət rəisi tərəfindən sürücülər təlimatlandırılır, hava və yol şəraiti barədə məlumat çatdırılır, yol hərəkəti qaydalarına riayət edilməsi barədə müvafiq tapşırıqlar verilir. Xətdən qayıtdıqdan sonra parkın girişində təyin olunmuş yerdə avtomobil saxlanılır, maşın rəhbəri avtomobili nəzarət-texniki məntəqəsi rəisinə təqdim edir. O, avtomobilin sazlığını yoxlayır, sürücü tərəfindən nəqliyyat vasitəsinə texniki qulluq göstərilir, yuyulur və yanacaq doldurulduqdan sonra parkda təyin olunmuş saxlancda saxlanılır.

Xidmət rəisi nəqliyyat vasitələri təhkim olunmuş hərbi qulluqçuların nəzəri biliklərinin artırılması məqsədilə mütəmadi olaraq məşğələlərin keçirildiyini söylədi.



Mayor İ.Hadıyev vəzifə borclarının icrasına vicdanla yanaşan, hər bilik və bacarıqlarını təkmilləşdirən nümunəvi hərbi qulluqçulardan baş çavuş Ruslan Bünyadov və kiçik çavuş Telman Oruclunun adlarını qeyd etdi.

Bir sözlə, hərbi hissənin parkında mühafizə olunan avtomobillərin və zirehli texnikaların saz vəziyyətdə saxlanılması, sürücü hərbi qulluqçuların peşə bacarıqlarının yüksək səviyyəyə qaldırılması diqqət mərkəzindədir.

**kapitan Şahin Cəfərzadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Polşa Amerika Birləşmiş Ştatlarından 12 milyard dollarlıq ağır döyüş helikopterləri alır

ABŞ hökuməti Polşaya 12 milyard dollar dəyərində AH-64E helikopterlərinin satışını təsdiqləyib. Bu barədə "Poliqon" ABŞ-ın Müdafiə Təhlükəsizliyi Əməkdaşlıq Agentliyinə (DSCA) istinadən xəbər verib.

Bildirilib ki, sifarişə 96 ədəd AH-64E ağır döyüş helikopterinin satın alınması, eləcə də onlara təmir, texniki xidmət, ehtiyat hissə və logistika dəstəyinin göstərilməsi daxildir.



Sifarişlə bağlı baş podratçı rolunda ABŞ-ın "Boeing" və "Lockheed Martin" şirkətləri çıxış edəcək.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Anar İsmayılova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
Əlaqə telefonları: 560-22-63

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**